# Müasir təhsilin mənəvi-əxlaqi aspektdə dəyərləndirilməsi

Müəllif **Vidadi Orucov**
Pedaqoji elmlər doktoru, Lənkəran Dövlət Universiteti Humanitar fənlər kafedrasının professoru. E-mail: vidadi_orucov@mail.ru
https://orcid.org/0000-0002-8589-2364

Annotasiya Son dövrlərdə bəzi gənclərin qeyri-ənənəvi dinlərin, sektaların, təriqətlərin təsirinə düşməsi və başqa xoşagəlməz mənəvi çatışmazlıqlar hamını narahat edir. Səbəblərdən biri kimi təlim-tərbiyə prosesinin natamamlığı, onun təşkili və idarə olunmasında həlledici mövqedə dayanan əsas pedaqoji anlayışların: «təlim» və «tərbiyə» məsələlərinin bir çox hallarda mütənasibliyinin gözlənilmədiyi qeyd olunur. Təhsil sistemi insanlarda bir sıra mənəvi keyfiyyətləri formalaşdırmaqla yanaşı, həm də bu dəyərləri qorumaq üçün praktik olaraq məsuliyyət hissi də aşılamalıdır. Bununla bağlı tərbiyə məsələlərinə xüsusi önəm verilməlidir. Pedaqoji prosesin təşkili ilə əlaqədar bir çox hüquqi-normativ sənədlərdə tərbiyə məsələlərinə xüsusi yer ayrılmır, əsas məqsəd biliklərə daha səylə yiyələnməyə yönəldilir. Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində sistemli biliklərin mənimsənilməsi ilə yanaşı, həm də mənəvi-əxlaqi tərbiyənin formalaşmasına xüsusi yer verilməli, qiymətləndirilməlidir. Məlumdur ki, tərbiyə prosesində millilik, din, etnik köklər, milli mentalitet, genetika kimi amillər xüsusi çəkiyə malikdir. Ona görə də bizim üçün min illərin təcrübəsində özünü doğrultmuş elmi yanaşmalar tərbiyənin ana xətti olmalıdır.

Açar sözlər Təhsil, tərbiyə, qiymətləndimə, sosiallaşma, qloballaşma, milli-mənəvi dəyərlər.

http://dx.doi.org/10.29228/edu.8

Məqaləyə istinad: Orucov V. (2019) *Müasir təhsilin mənəvi-əxlaqi aspektdə dəyərləndirilməsi.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 87–94.

Məqalə tarixçəsi: Göndərilib — 21.03.2019; Qəbul edilib — 04.05.2019

# Evaluation of modern education in the moral aspect

Author **Vidadi Orujov**
PhD, Lankaran State University, Professor of the department for Humanitarian subjects. E-mail: vidadi_orucov@mail.ru
https://orcid.org/0000-0002-8589-2364

Abstract The cases increasing among the youth in our society recently: suicide, drug dependency, to be under the influence of untraditional religions, and sects, and other unpleasant moral shortcomings make anxious everybody. As one of the causes of the incompleteness of the instructive and educational work is not obeying the proportionality of the matters in some cases of the matters "training" and "breeding": the main pedagogical notions standing in the final position on its organization and management. The education system should form the feel of responsibility practically for the protection of the moral values along with the formation of these values in the people. The attention should be given to the matters of upbringing with this regard. A special place is not separated for such upbringing matters some legal-normative documents connected with the organization of the pedagogical process, the main purpose is directed to mastering the systemized knowledge. A special attention should be given to the formation of moral-ethical upbringing along with mastering the systemized knowledge in the appreciation of the achievements of students. It is known that, the factors such as the nationality, religion, ethical roots, national set of mind, genetics have special place in the upbringing process. That's why the Theology should be the main line of the scientific breeding.

Keywords Education, upbringing, appreciation, socialization, globalization, national moral values.

http://dx.doi.org/10.29228/edu.8

To cite this article: Orujov V. (2019) *Evaluation of modern education in the moral aspect.* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 87–94.

Article history: Received — 21.03.2019; Accepted — 04.05.2019

Təhsilin əsas məqsədi əxlaqlı insanlar yetirməkdir. Son dövrlərdə cəmiyyətimizdə gənclər arasında baş alıb gedən xoşagəlməz hallar: qeyri-ənənəvi dinlərin təsirinə düşmək və başqa xoşagəlməz hadisələr hamını narahat edir. Müəllim-şagird-tələbə münasibətlərində gərginliklər hələ də qalır. Bir çox hallarda yeniyetmələri nə evdə, nə də məktəbdə anlamaq istəyirlər, onlar isə suallarına cavabı «başqa yerlərdə» axtarmalı olurlar. Belə misallar yüzlərcədir. İstər-istəməz belə bir sual yaranır: görəsən belə halların çoxalmasının başlıca səbəbi nədir?

Bu sualın cavabını məktəbdə, təhsildə axtarmalı oluruq. Böyük şairimiz Hüseyn Cavid yazırdı ki, «Bir millətin tərəqqi və tədənnisini bilmək üçün millətin məktəblərini, daha doğrusu, ibtidai məktəblərini görmək kifayət edər» (Hüseyn Cavid. 2005, səh.288).

Məktəb, təhsil hər kəsin, millətin taleyində öz naxışını mütləq həkk edir. Bütün xalqlar məktəbə, təhsilə ümidlə baxırlar. O, şagirdlərə təkcə öyrənməyi öyrətmir, onların milli-mənəvi dəyər ruhunda tərbiyə olunmasında əsas rol oynayır. Çünki müəllimdən çox şey asılıdır. Müəllimin bu sahədəki uğuru onun pedaqoji ustalığından asılıdır. Əgər hansısa çatışmazlıq varsa, bunun səbəbini təkcə məktəbdə axtarmaq doğru olmaz. Bu məsələdə cəmiyyətin və məktəbin birliyi həlledici olmalı, təlim-tərbiyə prosesinin tamlığı ilə bağlı fikirlər və əməllər bir-birini tamamlamalıdır. Ancaq təcrübə göstərir ki, hər zaman belə olmur.

Digər tərəfdən, bu məsələləri incələsək, görərik ki, təlim-tərbiyə prosesinin tamlığında, onun təşkili və idarə olunmasında həlledici mövqedə dayanan bir sıra məsələlərə münasibət pedaqogika elminin özündə hələ də tam aydınlaşdırılmamışdır. Onlardan biri də ümumilikdə təlim və tərbiyə məsələlərinin bir-birinə münasibətidir.

## Keçmiş təcrübə

Uzun illərdir ki, pedaqogika elmində tərbiyə və ya təlimin hansının daha önəmli olması, ya da bunlardan hansının daha əvvəl yarandığı geniş müzakirə obyektinə çevrilmişdir. Pedaqogika sahəsində tanınmış alimlərdən bəziləri tərbiyə və təlimin pedaqoji prosesin qoşa qanadı olmasını, bəziləri bunların ayrı-ayrı sahələri əhatə etdiyini, bəziləri isə bunlardan birinin sadəcə digərinin alt komponentlərdən biri olduğunu söyləyirlər.

Azərbaycanın görkəmli alimi, etnopedaqoqu, professor Əliheydər Həşimov yazır ki, tərbiyənin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Alim-pedaqoqların əksəriyyəti pedaqogikanı tərbiyə haqqında elm hesab edir, eyni zamanda onun təlim nəzəriyyəsi və tərbiyə nəzəriyyəsindən ibarət olduğunu bildirirlər. Bir çoxları da tərbiyəni geniş mənada iki yerə: təşkil olunan (məktəblərdə) və təşkil olunmayan (məktəbdənkənar, sinifdənxaric) hissələrə bölürlər (Abbasov A. *muallim.edu.az*).

Təhsilalanların hamısının məktəbin ictimai həyatındakı mədəni-kütləvi işlərdə iştirakı vacib deyil, bu, könüllülük prinsipidir, onsuz da şagirdlərin nailiyyətləri yalnız biliklərinə görə qiymətləndirilir. Həyatda önəmli olan insanları sadəcə biliyinə görə deyil, sağlam əqidəsinə, etibarına... «tərbiyəsinə» görə seçməkdir.

Azərbaycanın böyük filosofu, astronomu, dövlət və din xadimi, tərbiyə nəzəriyyəçisi Nəsirəddin Tusi tərbiyəni insanın insanlıq haqqı qazanmasını təmin edən əsas əməl, tərbiyə ilə insanlığı vahid nemət hesab edirdi. Müasir pedaqogika elminin banisi, didaktikanın əsasını qoymuş böyük Çex pedaqoqu Y.A. Komenski də tərbiyə məsələlərinə böyük dəyər vermişdir. Bununla bağlı o, «Böyük didaktika» əsərinin əxlaqi tərbiyənin üsuluna həsr edilmiş 23-cü fəslini belə başlayır: «Bütün bu vaxta qədər danışılanlar əxlaq və möminlik kimi başlıca şeyə nisbətən o qədər də əhəmiyyətli deyildir. Bəs əsl iş nədən ibarət olacaqdır? Əsl iş bizi yüksək dərəcədə nəcib, qüdrətli və alicənab edən müdrikliyi öyrənməkdən ibarət olmalıdır. Bu, məhz yuxarıda əxlaq və möminlik dediyimiz şeydir; ancaq bunların sayəsində, biz, həqiqətən Allahın özünə daha yaxın-yüksək məxluq oluruq» (Komenski Y.A. 2012, səh.388).

Məktəb və təlim-tərbiyə məsələlərinə xüsusi diqqət yetirən, Azərbaycanın ictimai-siyasi fikir tarixinə görkəmli dövlət xadimi kimi daxil olmuş Nəriman Nərimanov yazırdı: «Məktəbin ən başlıca məqsədi, gərək tərbiyə olsun, yəni oxumağa, yazmağa çox da diqqət etməyib uşağın ruh və əxlaqına, mənəviyyatına ziyadə diqqət etmək lazımdır... Təlim gərək tərbiyəyə bağlı olsun» («Müəllimlər ictimaiyyətinə dair silsilə məqaləsi». «Həyat» qəzeti).

Pedaqogika elminin görkəmli simalarından olan professor İ. Yefromoviç Şvars yazırdı: «İndiki dövrdə tərbiyədən «geniş və dar» mənada istifadə edirlər. Geniş mənada tərbiyə-şəxsiyyətin formalaşmasının tam prosesi,... nə vaxt deyirlər «həyat tərbiyə edir», sözün dar mənasında isə – şəxsiyyətin inkişafının idarə olunması ilə bağlı xüsusi təşkil olunmuş prosesdir. O müəllimin qarşılıqlı təsirindən keçir» (https://litresp.ru/chitat/ru).

Professor Z.Qaralov bu məsələ ilə bağlı «Tərbiyə» adlı əsərində yazır: «Cəmiyyətdə belə bir fikir geniş yayılıb: «Əvvəlcə tərbiyə, sonra təlim». Bu fikir tərbiyənin insan üçün son dərəcə vacibliyinin sübutu olsa da, təlimin tərbiyəedici funksiyasının inkarıdır. Ona görə də bu fikri şüara çevirmək düzgün olmaz. Təlim və tərbiyənin bir-biri üçün həm səbəb, həm də nəticə olması məlumdur və təlim-tərbiyənin vahidlik prinsipi çoxdan təsdiq edilmişdir. Bununla belə, həmin fikri uşağın sistemli təhsilə başlayacağı vaxta qədərki dövr üçün məqbul saymaq, ona əməl etmək vacibdir» (Qaralov Z.İ. 2003, səh.268).

Ə.Paşayev, F.Rüstəmov, Y.Kərimov, F.Sadıqov və başqaları təlimin tərbiyəedici funksiyasının olduğunu nəzərə alaraq, təlim prosesində tərbiyə işinin də aparıldığını vurğulayırlar (Ə.Paşayev, F. Rüstəmov. 2007, səh.272). Y.Talıbov, Ə.Ağayev, A.Eminov və İ.İsayevin birgə müəllifliyi ilə yazılmış «Pedaqogika» (tədris vəsaiti) adlı əsərdə isə «Tərbiyə təlim prosesinin hüdudlarını aşaraq, daha geniş sahəni əhatə edir» kimi qeyd edilir (Y.Talıbov, Ə.Ağayev, A.Eminov, İ.İsayev. 2003, səh.140).

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra təhsilimizin hüquqi-normativ bazasının gücləndirilməsi, demokratikləşməsi, humaniştləşdirilməsi, məzmunca və keyfiyyətcə yeniləşdirilməsi və maddi-texniki təminatı istiqamətində atılan uğurlu və ardıcıl addımlar davam etdirilir. Hazırda respublikamızın təhsil sistemində

dünyanın təhsil məkanına inteqrasiyası, yeni təhsil modellərinin tədris prosesinə gətirilməsi diqqəti cəlb edir. Bu modellərin əsasını dünya təcrübəsi, təhsilin dinamik inkişafı və birdəfəlik təhsildən fasiləsiz təhsil prinsipinə keçid ideyaları təşkil edir. Ənənəvi təhsil formaları yeni təhsil modellərinə inteqrasiya olunur və vahid təhsil məkanının yaranmasına-qloballaşmaya, informasiyalı cəmiyyətin yaranmasına geniş imkanlar açılır. Təhsildə aparılan islahatlarda Avropaya meyillilik daha çox özünü büruzə verir. Dünyanın bir çox ölkələrində bu məsələlərin həyata keçirilməsi işində bir sıra beynəlxalq təşkilatlar: Avropa təhsil fondu, Avropa Təhsil Şurası, elmi və texniki tədqiqatların dəstəklənməsi üçün Avropa kooperasiyası, Avropa elm fondu, Evrika fondu, NATO-nun elm proqramı, Ali təhsil sahəsində Avropa kooperasiyası, Beynəlxalq elmi-texniki mərkəz, İqtisadiyyat sahəsində təhsil və tədqiqatlar konsorsiumu və s. fəallıq göstərir, maddi və mənəvi dəstək verirlər.

Maraqlı fakt odur ki, bir sıra Avropa alimlərinin özləri Avropa təhsil modellərinin tamlığını qəbul etmirlər. Bu modellərin əsas çatışmayan cəhəti kimi onun insan yönümlü deyil, daha çox iqtisadi yönlü olmasını qeyd edirlər. Fransız Roger Garaudy, «Mədəniyyərlər dialoqu» əsərində yazır: «Qərb bir qəzadır. İnsanlığın gələcəyini yenidən inşa edərkən bu ilk təməl gerçəkliyini, yəni Qərbin bir qəza olması reallığını ağlımızdan çıxarmamağımız gərəkdir... İndiki Qərb cəmiyyətlərimizin adlandırdıqları «inkişaf», çox dar, birtərəfli, sırf iqtisadiyyata dayanan kriteriyalara görə tərif edilir... İnkişafın bu tərifi, iqtisadi inkişafın sosial həyatın bütün tərəflərinin dəyərləndirilməsinin tək ölçüsü olması postulatına dayanır. Üstəlik, bu böyümə hər cür insani düşüncəni rədd edərək sadəcə miqdar baxımından maraqlıdır, yəni texnologiyalar istər dağıdıcı, istər zülmedici olsa da, sırf sosial yönlü kimi tərif edilir» (Roger Garaudy. 2012, səh.254).

ABŞ-ın görkəmli təhsil nəzəriyyəçisi Hovard Qardner yazır: «İnsanların bir-birini başa düşməsi səviyyəsinin yüksəldilməsi baxımından nə olursa-olsun təhsil öz məxsusi təsdiqini tapmalıdır. Bütün elmlərin əsas obyekti insan olmalıdır» (Пятьдесят современных мыслителей об образовании. 2012, səh.488). Müasir dövrdə təhsil sistemi insanlarda daha önəmli olan bir sıra dəyərləri formalaşdırmaqla yanaşı, həm də onlarda bu dəyərləri qorumaq üçün bir məsuliyyət hissi də formalaşdırmalıdır.

Sovet hökuməti dövründə əxlaqla bağlı qiymət yazırdılar. Sinif jurnalının arxasında «davranış dəftəri» deyilən bir dəftər də var idi. Lazım gəldikdə müəllimlər sinifdə oxuyan uşaqların mənfi və müsbət cəhətləri barədə qeydlər aparırdılar. Qeydləri, əsasən, şagirdlərə qarşı daha diqqətli, qayğıkeş, həssas, uzaqgörən, hadisələri qabaqlama bacarığı olan müəllimlər edirdi. Bu qeydlərin hər birinin böyük tərbiyələndirici gücü var idi. Məsələ əsas etibarı ilə ictimai xarakter alırdı, nəticə etibarı ilə hər kəsdə eyni bir məlumat formalaşırdı: müsbət, orta, ya da mənfi. «Qısası təhsilin ən önəmli özəlliklərindən biri də davranışı dəyişdirmə prosesi və onun məqsədyönlü həyata keçirilməsidir» (Mustafa G. 2019, s.250).

İstər işə düzələndən, istər də kənar təşkilatlara işi düşən hər kəsdən xasiyyətnamə tələb edirdilər. Bu xasiyyətnamələr əksər hallarda səmimi, pedaqoji dildə və üslubda

yazılmaqla, şəxs haqqında müəyyən təsəvvür formalaşdırırdı. Bütün bunlarla yanaşı məktəb ictimai təşkilatları sistemli və ardıcıl iş aparırdılar. Heç kəsin diqqətdən yayınma şansı yox idi. Hər bir şagird haqqında formalaşan ictimai fikir isə tam reallığa uyğun gəlirdi (Abbasov A. Əmirov M. 1987).

## Yeni strategiya, doğru hədəflər

İndi də təhsil müəssisələrimizdə bu istiqamətdə sistemli işlər aparılır. Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesinə tətbiqi uğurla davam etdirilir. Ancaq ümumilikdə hiss olunur ki, təhsil müəssisələrində təlim-tərbiyə mədəniyyəti yetərli deyil və biz çox ciddi çalışmalıyıq. Bəzən təhsil müəssisələri tərbiyə vəzifələrini, lazım olduğu kimi yerinə yetirə bilmir. Əksər hallarda uşağa ailənin, məktəbin, müəllimlərin təsiri fərqli olur. Pedaqoji təsirlərlə sosial təsirlər arasında uyğunsuzluq açıq hiss olunur. Eyni zamanda bunlar pedaqoji prosesin nəticələrini özündə birləşdirən bəzi rəsmi dövlət sənədlərində də öz əksini tapmamış, tərbiyə məsələlərinə xüsusi yer verilməmiş, əsas məqsəd biliklərə daha səylə yiyələnməyə yönəldilmişdir.

Misal üçün, publisist Mixail Nikiforoviç Katkov və onun dostlarının vəsaiti hesabına 13 yanvar 1868-ci ildə Nikolay Çesaraviç adına Moskva liseyi (indiki Rusiya Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası) açılmışdır. Bu liseydə təhsil alanların nailiyyətləri aşağıdakı kriteriyalara:

*1) Dərslərə hazırlığın keyfiyyətinə;*
*2) Dərs zamanı diqqətli olmağa;*
*3) Yazılı tapşırıqların xarici görkəminə;*
*4) Keçilən materialların mənimsənilməsinin möhkəmliyinə;*
*5) Bilkləri düzgün tətbiq etmə bacarığına;*
*6) Davranışına-əxlaqına;*
*7) Neçə dəfə dərsdə olmadığına;*
*8) Müəllim tərəfindən yazılan qeydlərin (iradların) sayına və səbəbinə* görə qiymətləndirilirdi (https://cyberleninka.ru/.../sistema-otsenivaniya-znaniy-v-isto).

Göründüyü kimi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin belə bir sistemdə biliklərin mənimsənilməsi ilə yanaşı, həm də əxlaq tərbiyəsinin formalaşmasına da xüsusi yer verilmiş, bir neçə kriteriyanın qiymətləndirilməsi ayrıca nəzərə alınmışdır.

Bu gün tərbiyə prosesinin təşkilatçılarının peşə səriştəliliyini də yetərli hesab etmək olmaz. Bu sahədə çalışan adamların seçilməsi və xüsusi hazırlığına diqqətlə yanaşılmalı, bu işdə beynəlxalq təcrübədən öncə, milli tərbiyə sisteminin formalaşdığı dəyərlərə önəm vermək lazımdır. Tərbiyə işinin əsas məqsəd və vəzifələri, icra metodları elmə əsaslanmalı, təhsilin bütün pillələrində milli dəyərlərin üstünlüyü hesabına sistemli və ardıcıl olaraq təkmilləşdirilməlidir. Tərbiyə olunanlar erkən yaşdan sosiallaşmalı, onların ictimaiyyətə adaptasiyası əsas məqsəd olmalıdır. Bu sahədə çalışanların pedaqoji ustalığı, tərbiyəçiyə xas olan fərdi xüsusiyyətləri, işə

yaradıcı yanaşma və konkret pedaqoji situasiyalarda problemin optimal həlli yollarını düzgün tapmaq kimi keyfiyyətləri də olmalıdır.

## Nəticə və təkliflər

Tərbiyənin keyfiyyəti haqqında yeni anlayışların, məktəbdə keyfiyyətin idarə olunması sisteminin təkmilləşdirilməsi və təhsil xidmətlərinin effektivliyinin dəyərləndirilməsi kimi bir sıra məsələlər də maraq doğurur.

Bu gün qloballaşan dünyada tərbiyə prosesinin sistemli, məqsədyönlü tamlığına, humanistləşməsinə, bütün tərbiyəvi təsirlərin inteqrasiya olunmasına hər yerdə olduğu kimi, respublikamızda da böyük ehtiyac vardır. Bunlardan bəzilərini qeyd etmək olar:

1. Təlim-tərbiyə münasibətlərinə aydınlıq gətirilməli, tərbiyə prosesinin məzmunu, metodları və təşkilinə verilən əsas tələblər zamana uyğunlaşmalı, tərbiyə prosesinin reallaşması yollarına yönəldilməlidir.

2. Qloballaşmanın mənəvi dünyamıza təsirinə, xüsusən kütləvi informasiya vasitələri, telekanallar və internetə qarşı ciddi nəzarət olmalıdır. Milli mənəvi dəyərlərimizin qorunub saxlanılması ilə bağlı sistemli işlər görülməlidir.

3. Milli-mənəvi dəyərlərimiz, islam əxlaqının gözəl qayəsi, tolerantlıq kimi məsələlərin erkən yaşlardan təbliği, təşviqi təmin olunmalı, bu məsələlər təhsilin pillə və səviyyələrinin yeni proqramlarında müəyyən mənada öz əksini mütləq tapmalıdır.

4. Məktəb və cəmiyyət tərbiyə laboratoriyasına çevrilməli, hər bir təhsil alanın etik-əxlaqi norma və dəyərlərinin inkişaf dinamikası nəzarətdə olmalı, onun sosiallaşmasına və cəmiyyətin layiqli üzvü olmasına yönəlməlidir.

5. Təhsil alanların nailiyyətlərinin dəyərlənməsində əxlaq tərbiyəsi mütləq nəzərə alınmalı, qiymətləndirilməli və bu, bütün tərbiyə konsepsiyaları və qaydalarında öz əksini tapmalıdır. Hər bir təhsilalanın əxlaqı ilə bağlı məlumatlar onların valideynlərinə, məktəb kollektivinə bəlli olmalıdır.

6. Məktəb ictimai təşkilatlarının tərbiyə işinin əhatəsi geniş və hər bir təhsil alan üçün cəlbedici olmalıdır. Dövlət və cəmiyyət tərəfindən mili-mənəvi dəyərlərmizin təbliği və təşviqi, sosialyönümlü layihələri həyata keçirən ictimai təşkilatların fəaliyyəti rəğbətləndirilməlidir.

7. Sinifdənxaric, məktəbdənkənar tərbiyə işləri təhsilin bütün pillələrində gücləndirilməli və əlaqələri genişləndirilməli, başlıca məqsədi tərbiyə alanların sosiallaşması olmalıdır.

8. Tərbiyə işi ilə məşğul olanların – tərbiyəçilərin, təşkilatçıların, sosial pedaqoqların, psixoloqların və s. hazırlıq proqramlarına yenidən baxılmalı, onlardan daha çox özünü təcrübədə doğrultmuş variantlarına üstünlük verilməlidir.

## İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A. Əmirov M. (1987) Əxlaq tərbiyəsinin təsirli vasitəsi. Azərbaycan məktəbi jurnalı, №1, s.31-35.
2. Abbasov A. Öyrətməyi və öyrənməyi xoşlayan insan. www.muallim.edu.az
3. Abbasov O. (1988) Şagirdlərin əxlaq tərbiyəsində ictimai – faydalı əməkdən istifadə. Azərbaycan məktəbi jurnalı, №11, s.19-24.
4. Babayev Y. (2014) Əxlaqi-didaktik əsərlərimiz mənəvi sərvətimizdir. //Azərbaycan məktəbi jurnalı, №3, s.82-89.
5. Garaudy R. (2012) Medeniyetler Diyaloğu, (çeviren Cemal Aydın), Topkapı, İstanbul. 254 s.
6. Güçlü M. (2019) Eğitim felsefesi, Baskı: Salmat Basım Yayıncılık Ambalaj Sanayi Tic. Ltd.Şti. Ankara. 250 s.
7. Həyat qəzeti. №3, №6, №8, №9, №13 avqust 1906-cı il tarixli nömrələri.
8. Hüseyn Cavid. (2005) Əsərləri. Beş cilddə. V cild. Bakı, Lider nəşriyyat, 288 səh.
9. Xəlilov S.S. (2005) Təhsil, təlim, tərbiyə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı. 650 səh.
10. Kərimov Y.Ş. (2007 ) «Təlim metodları». Bakı, RS Poliqraf. 272 səh.
11. Komenski Y.A. (2012) Böyük didaktika. Bakı, «Elm və təhsil». 388 səh.
12. Qaralov Z.İ. (2003) Tərbiyə (prinsiplər, məzmun, metodika). – Bakı, Pedaqogika. 268 səh.
13. Paşayev Ə., Rüstəmov F. (2017) Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Elm və təhsil. 464 səh.
14. Talıbov Y., Ağayev Ə., Eminov A., İsayev İ. (2003) Pedaqogika. Bakı, Adiloğlu nəşriyyatı. 140 səh.

Алиев Акиф. (2016) Система моральных ценностей, влияющих на развитие культурного развития общества. Азербайджанская школа, №1. с.25-32

15. Ахундов С. (1966) Индивидуальные беседы в моральном воспитании. Азербайджанская школа, №6. с. 30-35
16. Пятьдесят современных мыслителей об образовании. (2012) От Пиаже до наших дней. М.: Изд. дом Высшей школы экономики. 488 с.

**İnternet resursları:**

17. https://cyberleninka.ru/.../sistema-otsenivaniya-znaniy-v-istor
18. https://dvagrada.ru/
19. https://litresp.ru/chitat/ru.
20. https://Muallim.edu.az
21. https://Edu.gov.az
22. https://Azedu.az
23. https://www.cambridge.org › education
24. https://journal.edu.az